22120541

International Baccalaureate®
Baccalauréat International
Bachillerato Internacional

**AZERBAIJANI A1 – HIGHER LEVEL – PAPER 1**
**AZERBAÏDJANAIS A1 – NIVEAU SUPÉRIEUR – ÉPREUVE 1**
**AZERÍ A1 – NIVEL SUPERIOR – PRUEBA 1**

Thursday 10 May 2012 (morning)
Jeudi 10 mai 2012 (matin)
Jueves 10 de mayo de 2012 (mañana)

2 hours / 2 heures / 2 horas

---

INSTRUCTIONS TO CANDIDATES

- Do not open this examination paper until instructed to do so.
- Write a commentary on one passage only.
- The maximum mark for this examination paper is *[25 marks]*.

INSTRUCTIONS DESTINÉES AUX CANDIDATS

- N’ouvrez pas cette épreuve avant d’y être autorisé(e).
- Rédigez un commentaire sur un seul des passages.
- Le nombre maximum de points pour cette épreuve d’examen est *[25 points]*.

INSTRUCCIONES PARA LOS ALUMNOS

- No abra esta prueba hasta que se lo autoricen.
- Escriba un comentario sobre un solo fragmento.
- La puntuación máxima para esta prueba de examen es *[25 puntos]*.


© International Baccalaureate Organization 2012

*Mətinlərdən* ***birinin*** *şərhini verin.*

**1.**

– Həyif, balıq ləzzət verməyəcək.

Biz səbəbini soruşduqda dedi ki, evdə sirkə yoxdu. Kütüm balığını da sirkəsiz yedin, ha heç yemedin ikisi də birdir. Və bu sözləri deyəndən sonra ev sahibi qaçdı çölə və haman saat sevincək qayıdıb gəldi. Əlini bir-bir qoydu biz üç ədibin çiynınə və şad, sevincək dedi:

– Siz öləsiniz, bax, bu dəqiqə sirkə gələcək.

Biz hərçənd doğrudan da ac idik, ancaq sirkənin gəlməyinə çox böyük həvəslə həvəslə dayandıq. O səbəbə ki, doğrudan hər bişmişin öz qanunu və öz xasiyyəti var və təzə balığı sikəsiz yemək, əti duzsuz yemək kimi bir şəydir.

On dəqiqə kəşməmişdi ki, bir balaca uşaq bir böyük şüşə dolusu qırmızı sirkəni gətirib qoydu stolun üstə, qaçdı getdi və ev sahibi ədib yoldaşımız balıqları buğlana-buğlana iki böyük qabda "pəh-pəh" deyə deyəgətirdi qoydu stolun üstə. Qapının arasından da bir qoca arvad başını çıxardıb mehriban və səsi titrəyə-titrəyə dədi:

– Yəyin, qadanız mənə gəlsin.

Bu arvad əv sahibi ədib yoldaşımın anası imiş. Bakıya təzə varid olan ədib rəfiqimiz çəngəli balığın bir tikəsinə ilişdirib qalxızdı yuxarı və burnunun qabağına tutub iylədi və dedi:

– Pəh-pəh!… Deyəsən yeməli balığa oxşayır.

Ev sahibi ədib yoldaşımız da balığın bir tikəsini də öz boşqabına qoyub pəh-pəh eləyə-eləyə dedi:

– Siz öləsiniz, balığın bir ətrinə tamaşa eləyin ey! Pəh-pəh, balıq, nə balıq. Balığda təzə-təzə yeyəsən; təzə ki, olmadı-daha onun nə ləzzəti?

Birinci bakılı ədib yoldaşımız çəngəli ilə balığın tikələrini seçə-seçə ev sahibi ədib yoldaşımıza belə diqqət tutdu:

– Mən ölüm, ay Əhməd Fitrət (ev sahibi ədib yoldaşımızın adıdır), o yediyin balığın adını ata-anamız "balıx" qoyub, sən də elə "balıx" de, "balıq" demə.

Əhməd Fitrət bu həyndə sirkə şüşəsini əlinə götürüb, balığın üstə tökmək istəyirdi və birinci bakılı ədib yoldaşımızın tənqidinə bilmədi o saat nə cavab versin. Ancaq şüşənin ağzını açmamış qoydu stolun üstə və bir qədər də dinməyip, sonra dedi:

– Mərhum atamız, doğrudur, "balıx" deyiblər, amma biz gərək "balıq" deyək, neinki "balıx"

Bakıya təzə varid olan ədib rəfiqimiz Əhməd Fitrətdən soruşdu:

– Axı bir səbəbi var ya yox? Əhməd Fitrət də bundan soruşdu:

– Nəyin səbəbi?

Mən burada üzümü Əhməd Fitrətə tutub dedim:

– Necə yəni nəyin səbəbi? Axı səndən soruşurlar ki, biz ki, dörd Azərbaycan balaları ki, oturub burada balıx yeyirik, nə səbəbə biz bu balığa "balıq" deyək, "balıx" deməyək?

Əhməd Fitrət bir qədər ucadan dedi:

– Balıx nədi?

– "Balıx", bax bu yediyimiz heyvanın adıdır.

Əhməd Fitrət çəngəli stolun üstünə qoyub, dik qalxdı ayağa və ağzında yavan çörəyi çeynəyə-çeynəyə dedi:

– Ay mənim əziz qardaşlarım, axı bir mənə deyin görüm, axı hər dilin bir qanunu var. Axı bizim türk dilinin də bir qanunu var ya yox?

Birinci bakılı ədib yoldaşımız çəngəli qoydu stolun üstə, bir az ucadan, bir az da hirsli, buna belə cavab verdi:

– Allah atana rəhmət eləsin, ay Əhməd Fitrət. Bir bizi başa sal görək, o necə qanundu? Bəlkə doğrudan da biz qanmırıx.

Bakıya təzə varid olan ədib rəfiqimiz də bu söhbətə qarışıb o da çəngəli qoydu yerə və üzünü Əhməd Fitrətə tutdu:

– Əhməd Fitrət, qardaş, sən deyəsən hirslənirsən… Əvvələn, burada hirslənmək heç lazım deyil və ikincisi budur ki, axı… Əhməd Fitrət bunun sözünü belə kəsdi:

– Xəyr, bağışlayınız, mən heç hirslənmirəm; ancaq hər bir dilin bir qanunu var və o qanuna biz də tabe olaq. Məlumdur ki, türk milləti necə ki, hər bir işdə geri qalmışıq, dil barəsinde də habelə. Nə bir qanun tanıyırıq, nə bir ahəngə tabe oluruq; elə başımızı aşağı salıb Kabla Məmmədcəfər ve Fatma xalalar kimi deyirik. Elə ata-babalarımız ve cici-bacılarımız deyən kimi biz də gərək balığa “balıx” deyək?

Bakılı birinci ədib yoldaşımız da balıqdan bir tikə ağzına qoyu, bir az coşmağa başladı ve dedi:

– Əlbəttə gərək “balıx” deyək. Bəs necə sən ana dilin tərəfdarısan?

Əhməd Fitrət balığın bir tikəsini götürüb qoydu ağzına və bir az da ucadan və əllərini ölçə-ölçə ağzı göyşəyə-göyşəyə bu cür dedi:

– Qardaş, burada ana dilin nə dəxli var? Məgər “balıx” deyəndə ana dil olur, “balıq” dəyəndə ana dili olmur? Bir də mən qanmıram, biz dörd nəfər adam burada təzə dil yaratmayacağıq ki? Yəqin ki, dünyada hər bir elmin mütəəssisi olan kimi dilin də qanunları vəz edən, həyata tətbiq edən var.

Cəlil Məmmədquluzadə, *Sirkə* (1925)

**2.**

**Çinarın Şikayəti**

Başına yağmamış nə yağış, nə qar,
Tarix yaxşılığı yaxşı salamlar!
Aylı gəcələrin buludu lay-lay,
Dağılıb, üzünü göstərəndə ay
Işığı sallanır budaqlarımdan,
Öpür şirin-şirin dodaqlarımdan.
Bəzən də kükrəyib əsəndə külək
Coşur varlığında polad bir ürək.
Qalın şaxlarımın xışıltısından
Zövq alır dünyanın şöhrəti insan.
Bəzən də bir sərin axşama yaxın
Ətəkli çöllərdən hey axın-axın
Qalxan dolaşalar qaqqıldaşaraq,
Dərələr kəçərək, dağlar aşaraq,
Başımın üstündə dövrələr vurur,
Bir yerə sıxlaşıb, məclislər qurur.
Bu doğma quşların simfonyasından
Zövq alır dünyanın şöhrəti insan.
Bazən də canlanır gündüzün səsi–
Yığışır kölgəmə uşaq dəstəsi;
Azad yurdumuzun şərqilərindən
İxtiyar yaşımda zövq alıram mən…
Sərilər kölgəmə xallı-xalçalar.
"Bizdən də bəhtiyar bir nəsil mi var?"–
Dəyən uşaqların körpə yaşına,
Günəşlər yurdunun vətəndaşına
Baxdıqca böyüyür gözümdə insan,
Çəkdiyim ağrılar çıxır yadımdan.
Fəqət, deyirlər ki, yoldaş mühəndis
Məni bir arxasız, yurdsuz, kimsəsiz
Zənn edib, plana almışdır ki, mən
İndi çıxmalıyam öz kötüyümdən.
Demək qalmayacaq məndən yadigar.

Səməd Vurgun, *Çınar* (1956)